**Bakı şəhəri** **№1/21** **11 may 2018-ci il**

**Auditin keyfiyyətinə nəzarətin təkmilləşdirilməsi sahəsində qabaqcıl beynəlxalq təcrübənin tətbiqi barədə**

Dünya Bankının "Şərq tərəfdaşlığı ölkələrində audit və hesabatlılığın gücləndirilməsi" proqramı (STAREP) çərçivəsində 2018-ci il 26-27 aprel tarixlərində Vyana şəhərində keçirilmiş "Auditin keyfiyyətinə nəzarət sistemlərinin inkişaf etdirilməsi: tendensiyalar və imkanlar" mövzusunda seminarda əldə olunan qabaqcıl beynəlxalq təcrübənin ölkəmizdə tətbiqinə nail olmaq, Auditorlar Palatasının 2018-ci il üzrə iş planının 3.4-cü "Auditin keyfiyyətinə ictimai nəzarətin həyata keçirilməsinin təkmilləşdirilməsi" və 3.6-cı "Auditin keyfiyyətinə nəzarətin təkmilləşdirilməsi üzrə tövsiyələrin hazırlanması" bəndlərinin icrasını təmin etmək və "Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasında (2012-2020-ci illər)" auditor xidmətinin keyfiyyətinin yüksəldilməsi üzrə nəzərdə tutulmuş işlərin reallaşmasını təmin etmək məqsədilə

**QƏRARA ALIRAM:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının "STAREP" proqramında iştirak etmiş nümayəndə heyəti tərəfindən hazırlanmış "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinin yüksəldilməsi və xarici təcrübənin tətbiqi üzrə tədbirlər planı" təsdiq edilsin (əlavə olunur).
2. Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət üzrə komitəyə (V.Kərimov) və Auditin keyfiyyətinə nəzarət şöbəsinə (Y.Namazəliyev) tapşırılsın ki, müvafiq məsul şəxslərlə birgə tədbirlər planında nəzərdə tutulmuş işlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsini təmin etsinlər.
3. Auditin keyfiyyətinə nəzarət şöbəsinin müdiri Y.Namazəliyevə, Sədrin müşaviri F.Qarayevə, Beynəlxalq əlaqələr şöbəsinin müdiri T.Əmiraslanova və Aparatın informasiya texnologiyaları üzrə mütəxəssisi İ.Zeynallıya tapşırılsın ki, bu sərəncamın və ona əlavə edilən tədbirlər planının mətnlərinin on gün müddətində Azərbaycan, ingilis və rus dillərində Palatanın internet səhifəsində yerləşdirilməsini təmin etsinlər.
4. Bu sərəncamın icrasına nəzarət Auditorlar Palatası Aparatının rəhbəri Q.Bayramova həvalə edilsin.

**SƏDR** **V.NOVRUZOV**